**ZEYNƏB İBRAHIMOVA**
**Bakı Avrasiya Universiteti**
**Akademik Həsən Əliyev 135 A**
**zeynab.ibrahimova1@gmail.com**

# XX ƏSR TÜRKİYƏ ƏDƏBİYYATINDA ÖZGƏLƏŞMƏ PROBLEMİ

**Xülasə**

Özgələşmə problemi XX əsrə qədər yalnız fəlsəfənin daxilində öyrənilirdi, lakin zaman keçdikcə bu problem digər sahələrin də maraq dairəsinə daxil oldu. XX əsrdə özgələşmə problemini özünün əsas mövzusuna daxil edən cərəyan ekzistensializm cərəyanı idi. Ədəbiyyatda da özgələşmə problemini XX əsrin bir çox yazıçısı öz əsərinin əsas mövzusu kimi qələmə aldı. Türkiyə ədəbiyyatında ilk dəfə özgələşmə ilə bağlı əsərlərin yazılmasına Tənzimat dövründən başlanılmışdır. Tənzimat fərmanının qəbul edilməsindən sonra Türkiyənin ictimai-siyasi həyatında olduğu kimi yazılı ədəbiyyatında da qərb mədəniyyətinin təsirləri hiss olunmağa başlanılmışdır. Türk ədəbiyyatşünasları özgələşməyə ədəbiyyatda "bunalım ədəbiyyatı" adını verirlər. Bu mövzuda əsər yaradan sənətkarlar özünü dünyada tapa bilməyən, yaradılışını təhlil edən obrazları əks etdirmişlər. Bunalım ədəbiyyatının nümayəndələri öz romanlarında obrazların absurd xüsusiyyətlərini qabartmağa çalışmışlar. Bu məqalədə Oğuz Atayın və Y.Q.Qaraosmanoğlunun romanları özgələşmə problemi kontekstində təhlilə cəlb olunmuşdur. XX əsrdə Türkiyə ədəbiyyatında özgələşməni öz yaradıcılığında geniş formada əks etdirən yazıçılardan ən tanınmışı Oğuz Ataydır. Çağdaş Qərb ədəbiyyatında olduğu kimi, onun yaradıcılığında da "Fərdin cəmiyyətdəki mövqeyi" problemi əsas məsələlərdən biri olmuşdur. O da bir çox Qərb yazıçıları özgələşməni fərd və cəmiyyət kontekstində araşdırmışdır. Yazıçıya görə, fərd cəmiyyətdəki problemlərin həllini tapmağa çalışmadan öncə, özünün varlığını, kimliyini sorğulamalıdır.

***Açar sözlər:*** Özgələşmə, ekzistensializm, böhran, bunalım, ziyalı

Müasir dünya ədəbiyyatında əsas problemlərdən olan özgələşmə problemi, yaradılan bədii əsərlərin məzmunu ilə bərabər quruluşuna da təsir göstərmişdir. Türkiyə ədəbiyyatında ilk dəfə özgələşmə ilə bağlı əsərlərin yazılmasına Tənzimat dövründən başlanılmışdır. Tənzimat fərmanının qəbul edilməsindən sonra Türkiyənin ictimai-siyasi həyatında olduğu kimi yazılı ədəbiyyatında da Qərb mədəniyyətinin təsirləri hiss olunmağa başlanılmışdır. Qərb ədəbiyyatındakı yenilikləri Türk yazıçıları da öz əsərlərinə tətbiq edərək dövrün ənənəsinə uyğunlaşırdılar. Y. Ecevitin də dediyi kimi, bu dövrdə yenilikçi yazıçılar ənənəvi yazıçılardan fərqli olaraq yaratdıqları bədii əsərlərdə, xüsusən romanlarda fərdin daxili dünyasını ətraflı şəkildə təsvir etməklə oxucusu ilə qəhrəmanlarını yaxınlaşdırırdılar. (6)

XX əsrin 60-cı illərinin əvvəllərində ölkədə baş verən hərbi çevrilişdən sonra (27 may 1960-cı il) sonra meydana gələn ictimai-siyasi vəziyyət və mənəvi-ideoloji böhran Türkiyə ədəbiyyatını Qərbin modernist-ekzistensialist nəsrinə doğru istiqamətləndirirdi. Türk ədəbiyyatşünasları bu ədəbi təmayülə "bunalım ədəbiyyatı" adını verirlər. Psixologiyada "depressiya" məfhumu bir şəxsi itirdikdən və ya həyatdakı müxtəlif uğursuzluqlardan sonra ortaya çıxan kədər, yorğunluq və s. kimi hisslərin ağuşunda çırpınan insanların düşdüyü vəziyyəti əks etdirir. Bunalım ədəbiyyatı faktoru

psixoloji ədəbiyyatın müəyyən mərhələsini əhatə edən ədəbiyyat sayılır. Depressiyada olan insanlar keçirdikləri böhrana görə yaşadıqları mühitdə insanlarla münasibət problemleri yaşayır, buna görə də özlərini cəmiyyətdən təcrid edirlər. Böhran keçirən insanlar itirməkdən meydana çıxan hissə görə depressiyaya məruz qalırlar. Ziqmund Freyd itirmək və depressiyanın, həmçinin böhranın arasında əlaqə olduğunu qeyd etmiş, müxtəlif itkilərlə insanın eqosunun zədələndiyini və buna görə də özünə qapandığını qeyd etmişdir. (4, s123)

50-60-cı illərdə ölkədə və dünyada baş verən siyasi hadisələr, müxtəlif qadağaların qoyulması yazıçıların özlərinin daxili dünyalarına sığınmalarına, yaradıcılıqlarında isə keçirdikləri böhranları, psixoloji vəziyyətləri əks etdirmələrinə səbəb olmuşdur. Türkiyə ədəbiyyatında ekzistensializm cərəyanının ilk təmsilçiləri Fərid Edgü və Dəmir Özlüdür. Fərid Edgü ilk təmsilçilərdəndir. O, eyni zamanda 50-ci illərdə "Bunalım" ədəbiyyatının yaradıcısı olmuşdur. Yazıçının "Yaralı zaman" romanında İraq hadisələrindən qaçan insanların keçirdikləri sarsıntılardan, müharibənin bu insanlara verdiyi zərərdən təsirlənən Fərid Edgünün öz hisslərindən bəhs olunmuşdur.

Ekzistensializm cərəyanının və bunalım ədəbiyyatının Türkiyədəki ilk təmsilçilərindən biri də Dəmir Özlüdür. Onun "Bulantı" adlı hekayə kitabı "Bunalım" ədəbiyyatının ilk nümunəsi olmaqla yanaşı, J.P.Sartrın eyni adlı kitabından təsirlənmişdir. (1, s.18)

Bu mövzuda əsər yaradan sənətkarlar özünü dünyada tapa bilməyən, yaradılışını təhlil edən obrazları əks etdirmişlər. Bunalım ədəbiyyatının nümayəndələri öz romanlarında obrazların absurd xüsusiyyətlərini qabartmağa çalışmışlar. Hadisə və əhvalatlata uzun müddətli yox, yaşadıqları an və mühitə görə reaksiya verən obrazlar daim sıxıntı, böhran, ruhi təlatüm və tənhalıq keçirir. Təsadüfi deyildir ki, bu cür ədəbiyyat nümunələrində ən çox istifadə olunan mövzulardan biri də ölüm və intihar mövzusudur. Böhran keçirən obrazlar tənhalıqdan və insanlardan qaçaraq intihara yönəlir.

Türkiyə ədəbiyyatında özgələşmə anlayışı, xüsusən XX əsrin 70-ci illərindən sonra sənayeləşmə ilə inkişaf edən sosial-iqtisadi vəziyyətlə əlaqədar olaraq işədilirdi. Tənzimat dövründən başlayaraq bu günə kimi bir çox türk yazıçısı özgələşməni yaratdıqları bədii əsərlərdə geniş kontekstdə əks etdirməyə çalışmışlar. Özgələşmə probleminə öz yaradıcılığında geniş yer verən yazıçılara bunları nümunə göstərmək olar: Yaqub Qədri Qaraosmanoğlu, Atilla İlhan, Yusuf Atılgan, Peyami Safa, Adalet Ağaoğlu, Oğuz Atay, Vüsat O. Bener, Bilge Karasu, Elif Şafak, Orhan Pamuk və s. Bunların içərisində təkcə Oğuz Atay Türkiyə ədəbiyyatında özgələşməni bir kult halına gətirən dahi şəxsiyyət olmuşdur.

XX əsrdə Türkiyə ədəbiyyatında özgələşməni öz yaradıcılığında geniş formada əks etdirən yazıçılardan ən tanınmışı Oğuz Ataydır. Onun 1970-ci ildə ilk romanı olan "Tutunamayanlar" TRT Roman mükafatına layiq görülmüşdür. O. Atay Türkiyə ədəbiyyatına çağdaş roman anlayışını gətirən ilk postmodernist yazıçıdır. O, bütün əsərlərində insanın özündən və yaşadığı cəmiyyətdəki münasibətlərindən bəhs edir. Çağdaş Qərb ədəbiyyatında olduğu kimi, onun yaradıcılığında da "Fərdin cəmiyyətdəki mövqeyi" problemi əsas məsələlərdən biri olmuşdur. O da bir çox Qərb yazıçıları özgələşməni fərd və cəmiyyət kontekstində araşdırmışdır. Yazıçıya görə, fərd cəmiyyətdəki problemlərin həllini tapmağa çalışmadan öncə, özünün varlığını, kimliyini sorğulamalıdır.

"Tutunamayanlar" romanında hadisələr Səlim İşığın intiharı ətrafında baş verir. Roman, Turqut Özbənin Universitet illərində yaxın dost olduğu Səlim İşığın ölüm xəbərini qəzetdən öyrənməsi ilə başlayır. Bu xəbər onu dərindən sarsıdır. Bir zamanlar çox yaxın olduğu Səlimi nəyin ölümə apardığını, niyə bir-birlərinə bu qədər uzaqlaşdıqlarını düşünərək Səlimin intiharının səbəblərini araşdırmağı qərara alır. Bu romanı ilə O.Atay türk romançılığına yeni istiqamət

gətirmişdir. “Tutunamayanlar” romanı sosial-psixoloji romandır. Romandakı baş qəhrəmanlar oxuyan, düşünən, yəni cəmiyyətin o zamankı dəyərləri ilə barışmaz mövqedə olan insanlardır. Romanda Səlimin məktəblə bağlı düşüncələri, təhsil sistemindəki çatışmazlıqlar, ciddi disiplin və qorxu üzərinə qurulan qaydalar, şagirdi məktəbə özgələşdirən müəllim-şagird münasibətləri məktəbin bir təhsil müəssisəsi olaraq həyatdan ayrı düşməsi kimi vurğulanmışdır. Turqut Səlimin intihar səbəblərini öyrənmək üçün Səlimlə ünsiyyətdə olan yaxın dostlarına müraciət edir. Turqut onların hər birindən Səlimin müxtəlif xarakterlerini öyrənir. Araşdırmaları zamanı ona məlum olur ki, Səlimin insanlar tərəfindən anlaşılmaması, təcrid olunması, hətta ətrafındakılar tərəfindən aldadılması onun həyatda “tutunamayan” bir şəxs olmasına səbəb olmuşdur.

Oğuz Atayın ziyalı qəhrəmanları ilə cəmiyyət arasındakı münasibətdə yalnızlıq, ümidsizlik və qorxu daha çox hiss olunur. Daxili dünyalarında yaşayan qəhrəmanlar həyatdakı reallıqla üzləşdikdə özlərini bu dünyaya özgələşmiş hiss edirlər. Qərb mədəniyyətinin dəyərləri baxımından məsələyə yanaşdıqda, Səlimlik bir az da oblomovluqdur. “Avrupalaşma yolunu tutan her doğu ulusunda Oblomovluk vardır.” (2, s.69 )

Özgələşmə problemi ilə əlaqədar olaraq bir neçə yazıçının əsərini O.Atayın “Tutunamayanlar” romanı ilə müqayisəli şəkildə araşdıraq. İlk olaraq isə Yaqub Qədri Qaraosmanoğlunun “Yaban” romanını təhlil edək.

Y.Q. Qaraosmanoğlunun qələmə aldığı “Yaban” romanı təkcə özgələşmə mövzusuna görə yox, həm də ilk dəfə olaraq Anadolu kəndlisinin həyatından bəhs edən önəmli əsərlərdən biridir. Berna Morana görə, “Yaban” romanı ziyalı ilə kəndli arasındakı uçurumu ətraflı dilə gətirdiyi üçün, həmçinin Anadolu kəndlisinə aid həqiqətləri bütün çılpaqlığı ilə gözlər önünə sərdiyi üçün təqdir olunsa da, buna baxmayaraq, bəzi həqiqətləri təhrif etdiyi və kəndlinin sadəcə mənfi xüsusiyyətlərini əks etdirdiyi üçün tənqid edilmişdir. (Bax: 6, s. 949 )

Yazıçı romanda zaman və məkan anlayışlarına xüsusi önəm vermişdir. Romanda I Dünya müharibəsindən başlayaraq Sakarya zəfərinə qədər olan zamandan, Əskişəhərin kəndlilərindən və buraya sonradan gələn bir şəxsin həyatından bəhs olunmuşdur. Yazıçı bu romanı vasitəsilə türk ziyalısı ilə türk kəndlisini qarşılaşdıraraq oxucusuna iki dünya arasındakı fərqləri açıq şəkildə göstərmək istəmişdir.

I Dünya müharibəsində bir qolunu itirən Əhməd Cəlal Qurtuluş müharibəsinə qatıla bilməmişdi və işğal altında olan İstanbulda da qala bilmirdi. Məhmət Əlinin də təklifi ilə onunla birlikdə kəndlərinə gedərək orada yaşamağa razı olur. Əhməd Cəlal gəldiyi kənddə kəndlilər tərəfindən təcrid olunur və hər kəs onu “yaban” deyə çağırır. O, kənddə Əminə adlı bir qıza vurulur, ancaq qız Məhmət Əlinin kiçik qardaşı İsmayılı sevdiyi üçün onunla ailə qurur. Kəndlilər tərəfindən qəbul edilməyən Əhməd Cəlal təkcə Məhmət Əli ilə danışır, ancaq onun da İstiqlal savaşına çağırılması nəticəsində kənddə tamamilə yalnızlaşır. Romanın sonunda düşmən əsgərlərinin kəndə gəlib çıxması nəticəsində Əhməd Cəlal Əminəni də götürüb kənddən uzaqlaşmaq istəyir, ancaq yolda ikisi də yaralanır. Əhməd Cəlal kənddəki günlərini yazdığı dəftərini də orada qoyaraq uzaqlaşır. Sakarya zəfəri nəticəsində kəndə gələn heyyət uçqunlar arasında bir dəftər tapır. Bu dəftər Əhmət Cəlalın gündəliyidir, yəni “Yaban” romanıdır. Bu roman ziyalının özgələşməsini tam şəkildə izah edən bir romandır. Bu baxımdan O.Atayın romanı ilə bir çox ortaq xüsusiyyətlərə malikdir. Hər iki roman ziyalı insanların həyat faciələrini əks etdirir. Əhməd Cəlal türk ziyalısını təmsil edir. O, romandakı yeganə ziyalı obrazıdır. Yazıçı onun faciəsini elə Əhmədin öz dilindən bu şəkildə vermişdir: “Ben Celal Paşanın oğlu Ahmet, İstanbulun en muhteşem konaklarından birinde doğup ve parıltılı hülya iklimlerine doğru kanat açıp uçtuktan sonra, kanatlarımdan biri

kırılmış olarak buraya düştüm. Otuz iki yaşında bir emekli asker, bütün geleceği geride kalmış sakat bir delikanlı...” (5, s. 67)

Əhməd də Səlim kimi millətinin gələcəyini düşünən ziyalıdır. Əhməd ziyalı kimi yetişməsində oxuduğu kitabların böyük payı olduğunu düşünürdü. O, hər vasitə ilə kəndin insanlarına göstərmək istəyirdi ki, onların yaban adlandırdığı insan məhz onlar üçün müharibədə bir qolunu itirmişdir. Kəndin insanları üçün isə bu vəziyyət adi görünürdü. Bunun səbəbini yazıçı romanda aşağıdakı şəkildə ifadə etmişdir: “İlk günler Mehmet Ali ile köyde dolaşırken şuna buna rastgeldik mi, hemen sağ yanımı çevirirdim. Hele, yeni yetişen delikanlılarla genç kızlara ne yapıp yapıp mutlaka bu eksikliğimi hissettirmemeye çabalardım. Bu, benim son süsüm, son gösterişim, son çalımımdı. Beş-on gün içinde o da gitti. Sağ kolumun yokluğu kimsenin takdirini celbetmek şöyle dursun, hatta merhametini bile uyandırmadı. Acaba niçin? Bunu sonradan anladım. Zira, burada, sakatlık hemen herkese mahsus bir hal gibidir.” (5, s.19)

Səlimlə Əhməd arasındakı digər bir paralellik isə onları başa düşməyən insanları heyvanlara bənzətmələridir. Məsələn, Əhməd ona yabançı kimi baxan cahil kəndliləri heyvanlara bənzədərək deyirdi: “Biliyordum ki, toprak katı, tabiat ise zalimdir. Biliyordum ki, insan heyvanların en kötüsü, en bayağısı ve en az sevimli olanıdır. Evet, bilhassa en az sevimli olanıdır.” (5, s.18)

“Tutunamayanlar”da Səlim isə “Qəribə varlıqlar ensiklopediyası”nda insanları da bir növ heyvana bənzədərək onların xarakterik xüsusiyyətlərini təsvir etmişdir. Bununla hər iki yazıçı, həm Y.Q. Qaraosmanoğlu, həm də O.Atay elmsiz insanın heyvandan heç bir fərqi olmadığı ideyasını oxucularına çatdırmaq istəmişlər.

Əhmədlə Səlimi yaxınlaşdıran bir ortaq xüsusiyyət isə hər ikisinin günlük tutması olmuşdur. Hər ikisi də ziyalı insan olaraq cəmiyyətdə başa düşülmədiklərinə görə ürəklərindəki sözləri dəftərdə qeyd etməyə məcbur olmuşlar. Əhməd gündəliyində kəndlilərdən həmişə “onlar”-deyə bəhs etmişdir. Kəndlilər onu qəbul etmək istəmir, hətta onu özlərinə özgələşdirərək “yaban” adlandırırdılar. Əsərdə qarşıdurma kəndli ilə ziyalı arasında cərəyan edirdi. Kəndin sakinləri Əhmədi necə yaban kimi qəbul edirdilərsə, eləcə də Əhməd də onları, öz dilindən desək “ta taş devrindeki insanlar” (5, s.72) olaraq görürdü: “Onlar gibi olmak, onlar gibi giyinmek, onlar gibi yiyip içmek, onlar gibi oturup kalkmak, onların diliyle konuşmak... Haydi, bunların hepsini yapayım. Fakat onlar gibi nasıl düşünebilirim? Nasıl onlar gibi hissedebilirim? (5, s.68)

Y.Q. Qaraosmanoğlunun bu romanına görə uzun müddət təqiblərə məruz qalmasına səbəb romanda Anadolu kəndlisinin tənqid olunduğu fikrinin irəli sürülməsi ilə bağlı olmuşdur. Berna Morana görə isə yazıçının əsas məqsədi kəndlinin tənqdini vermək olmayıb. Yazıçıya görə əsas məqsəd 1930-cu illərdə Türkiyədəki siyasi hadisələrin insanlardakı təsirini təsvir etmək olmuşdur. (Bax: 5 s.153)

Əhməd kəndin insanlarına yad olmadığını hər vasitə ilə bildirmək istəyirdi. Hər zaman onlardan biri kimi davranırdı. Zaman keçdikcə bu düşüncəsinin imkansız olduğunu görməyə başladı və öz vətənində yabana çevrildi.

Ümumiyyətlə, Y.Q.Qaraosmanoğlu bu romanı ilə türk ziyalısı ilə kəndlisi arasında dərin bir uçurum olduğunu göstərdi. Bu uçurumu yazıçı romanda aşağıdakı sözlərlə ifadə etmişdir: “Her memleketin köylüsüyle okumuş yazmış zümresi arasında, aynı derin uçurum var mıdır? Bilmiyorum! Fakat okumuş bir İstanbul çocuğu ile bir Anadolu köylüsü arasındaki fark, bir Londralı İngilizle bir Pencaplı Hintli arasındaki farktan daha büyüktür.” (5, s.36)

Özgələşmə anlayışı bir növ həm də manqurtlaşmadır, desək, heç də yanılmış olmarıq. Çingiz Aytmatova görə vətənini, ailəsini, hətta özünün keçmişini belə unudan insan manqurt

sayılırdı. Böyük yazıçı "Gün var əsrə bərabər" romanında bunu aşağıdakı şəkildə ifadə etmişdir: "İnsanlar bir-birinə qarşı dözümlü ola bilər, amma onlar eyni cür düşünə bilməz. Bununla da onlar öz insanlıq ləyaqətini saxlayıb insan olaraq qalarlar. İnsanı öz fərdiyyətindən məhrum etmək ən qədim dövrlərdən bu günə qədər dünya ağalığı arzusu ilə yaşayan imperialist siyasətinin nəticəsidir. Yaddaşdan məhrum edilmiş, öz xalqının tarixi təcrübəsini yadırğamış insan tarixi inkişafdan kənarda qalar, yalnız bu günlə yaşaya bilər". (3, s.4)

Manqurt insanla özgələşən insan arasındakı tək fərq odur ki, manqurt insan başqasının fiziki tətbiqi nəticəsində məcburi olaraq özgələşdirilirsə, lakin özgələşən insan isə cəmiyyətin insana göstərdiyi psixoloji təsir nəticəsində fərdin öz istəyi ilə yaxınlarına, ailəsinə, bir sözlə cəmiyyətə özgələşməsidir.

Oğuz Atay da "Tutunamayanlar" romanın da məhz bunu ifadə etmək istəmişdir. Cəmiyyətdə başa düşülməmək qorxusu nəticəsində ağıllı insanın ruhən özünəqapanmasına, özünün daxili dünyasına sığınmasına səbəb olmuşdur. O.Ataya görə özgələşmiş insanın cəmiyyətdə özünə yer tapa bilməməsində, özünəqapanmasında və ya intihar kimi səhv yolu seçməsində tək səbəb kimi zülmü və elmsizliyi göstərirdi. O.Ataya görə özgələşən insan düşünmə qabiliyyəti əlindən alınan insandır. "Tutunamayanlar"da Səlim də ziyalı, ağıllı bir insan olmasına baxmayaraq, cəmiyyətdən ayrı düşdüyünü hiss etdiyi üçün intiharı seçir.

Ümumiyyətlə, XX əsr istər Türkiyə, istərsə də dünya ədəbiyyatında özgələşmə probleminin daha çox müraciət edildiyi bir dövr olmuşdur. Bunun səbəbi isə o dövrdə baş verən siyasi hadisələr, müharibələr idi. Müharibələrin insanlarda yaratdığı böhran, qorxu və s. kimi hallar yazıçıların yaradıcılığına təsir etməyə bilməzdi. Bunun ən bariz nümunəsini Y.Q. Qaraosmanoğlunun "Yaban" romanında müşahidə etdik.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Alxanova Q. "Bunalım" ədəbiyyatının bədii-estetik xüsusiyyətləri / "Şərq filologiyasının aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2011, s.197-198
2. Atay O. Tutunamayanlar. İstanbul: İletişim, 2016, 724 s.
3. Aytmatov Ç. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: "Öndər" nəşriyyat, 2004, 504s.
4. Freyd Z. Psikoanalize giriş dersleri: İstanbul: Öteki, 2016, 552 s
5. Qaraosmanoğlu Y. Q. Yaban. İstanbul: İletişim,2014, 214 s.
6. Moran B. Türk Romanına eleştirel bir bakış-II. İstanbul: İletişim, 1991, 198s.
7. Oktay A. Cümhuriyet dönemi edebiyatı. Ankara: Kültür, 1993, 1300 s.
8. TRT- Televiziyası, O.Atayı anma programı, 13.12.1978
9. https://www.oguzatay.net/biyografi
10. https://www.turkedebiyati.org/kitap_ozetleri/tutunamayanlar-oguz-atay.html


**З.Ибрагимова**

**Проблема отчуждения в турецкой литературе в XX веке**

**Резюме**

Проблема отчуждения изучалась только в рамках философии вплоть до XX века, но со временем эта проблема была также в области других областей. В XX веке появилась тенденция экзистенциализма, которая включила проблему отчуждения в свою основную тему. Проблема отчуждения в литературе была описана многими писателями XX века как основная тема его творчества. Впервые в турецкой литературе написание сочинений об

отчуждении началось с эры Тынзимата. После принятия указа влияние западной цивилизации стало ощущаться как в турецкой литературе, так и в социальной и политической жизни Турции. Турецкие литературоведы называют это «кризисом литературы» в литературе. Мастера, создавшие эту работу, отразили образы, которые не смогли найти себя в мире, и проанализировали их творчество. Авторы литературы Плети пытались раскрыть абсурдные черты своих персонажей в своих романах. В данной статье романы Огуза Атая и Ю.Г.Гараосманоглу были проанализированы в контексте проблемы отчуждения. Огуз Атай, самый известный писатель XX века, широко известен как писатель в турецкой литературе. Как и в современной западной литературе, проблема «положения личности в обществе» была одной из главных. Он также исследовал многих западных писателей в контексте отдельных людей и обществ. По словам автора, человек должен сначала поставить под сомнение свое су

**Ключевые слова:** Отчуждение, екзистенциализм, кризис, депрессия, интеллектуальной

**Z.İbrahimova**

**The problem of alienation in Turkish literature in the XX century**

**Summary**

The problem of alienation was studied only within the philosophy until the XX century, but over time, this problem was also in the domain of other areas. In the XX century, the trend of existentialism, which included the problem of alienation in its main theme. The problem of alienation in literature has been described by many writers of the 20th century as the main theme of his work. For the first time in the Turkish literature, the writing of works on alienation began with the Tenzimat era. Following the adoption of the decree, the effects of western civilization began to be felt in Turkish literature as well as in the social and political life of Turkey. The Turkish literary scholars call it "crisis of literature" in the literature. Craftsmen who created this work reflected the images that could not find themselves in the world and analyzed their creation. The authors of the scourge literature tried to cover the absurd features of their characters in their novels. In this article, the novels of Oguz Atay and Y.G.Garaosmanoglu have been analyzed in the context of the problem of alienation. Oguz Atay, the most famous writer in the 20th century, is widely regarded as a writer in Turkish literature. As in contemporary western literature, the problem of "Individual's position in society" was one of the main issues. He also investigated many Western writers in the context of individuals and societies. According to the writer, the individual should first question his existence and identity before attempting to find solutions to problems in society.

**Key words:** Alienation, existentialism, crisis, depression, intelligent

Redaksiyaya daxil olma tarixi: 20.03.2019
Çapa qəbul olunma tarixi: 29.04.2019

Filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Məmmədova – Kekeç tərəfindən çapa tövsiyə olunmuşdur